**AZƏRBAYCAN RESPUBLİKASININ**

# N A Z İ R L Ə R  K A B İ N E T İ

**Q Ə R A R**

**№ 92**

**Bakı şəhəri, 3 aprel 2014-cü il**

## Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında

Azərbaycan Respublikasının Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Bakı şəhərində sərnişinlərə avtobus nəqliyyatı sahəsində beynəlxalq standartlara uyğun xidmətin təşkili bu sahənin müasir tipli nəqliyyat vasitələri ilə təchiz edilməsi sərnişin-daşımalarını yerinə yetirməsi zaanı texniki və ekoloji baxımdan təhlükəsizliyin təmin olunması məqsədi ilə Azırbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərən payları dövlətə məxsus BakuBus Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.
2. Cəmiyyətin nizamnamə kapitalının formalaşdırılması, ilkin mərhələdə fəaliyyətin təşkili və Cəmiyyət tərəfindən sərnişindaşıması üzrə avtobusların alınması məqsədi ilə həmin Cəmiyyətə Azərbaycan Respublikasının 2014-

cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondunun 30,0 (otuz) milyon manat məbləğində vəsait ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərarın 2-ci hissəsi ilə ayrılmış vəsaitin maliyyələşdirilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti ilə Cəmiyyətə məxsus avtobusların marşrutlarını və hərəkət qrafiklərini müəyyən etsin.
5. Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılsın ki:

5.1 qanunvericilikdə nəzərdə tutulmuş qaydada Cəmiyyətin nizamnaməsinin təstiq edilməsini dövlət qeydiyyata alınmasının və icra orqanlarının yaradılmasının təmin etsin.

5.2 Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə ən azı 200 ədəd iri tutumlu avtobusun saxlanılması məqsədi ilə avtonəqliyyat parkları (qarajları) üçün yerin ayrılmasını 1 ay müddətində təşkil etsin.

6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş Naziri** **Artur Rasi-zadə**